**ADİU Əsaslı Kitabxanasının BİBLİOQRAFİYA şöbəsinin**

**2014-cü il üçün**

# HESABATI

Əsaslı Kitabxananın Biblioqrafiya şöbəsinin 2014-cü ildə fəaliyyəti bundan əvvəlki illərdən fərqlənərək, daha da aktiv, məhsuldar, həmçinin həm tələbələr, həm də əməkdaşlarımız və bütün istifadəçilərimiz üçün maraqlı olmuşdur.

**"Dövrü mətbuat"** fondunda 21 adda jurnal - bunlardan 4 adda digər dillərdə, 17 adda rus dilində jurnallar oxucuların istifadəsinə verilmişdir. Təəssüflər ki, azərbaycan dilində jurnallar bu il olmamışdır. Həmçinin 3 adda qəzet – "Azərbaycan", "Xalq qəzeti", "Respublika" qəzetləri də arxiv materialları kimi qorunub saxlanmışdır.

**"Dissertasiyalar"** fondunun elektron versiyası hazırlanmışdır. Bu il fonda 41 yeni elmi iş təqdim edilmişdir: bunlardan 37-si namizədlik, 4-ü isə doktorluq dissertasiyasıdır. Bu dəyərli alimlərimiz - ***Telman Qurban oğluBabayev, Həsən Abid oğluİsrafilov, Atik Ehsan oğluKərimov, Şəfa Tofiq qızı Quliyevadır.***

**"Avtoreferatlar"** fondunun da elektron versiyası hazırlanmışdır. Bu il fondda avtoreferatların sayı – 56-dır.

Hər il oldugu kimi, bu il də **"YENI KİTABLAR"** rubrikası altında seriyalı biblioqrafik siyahı davamlı olaraq oxuculara çatdırılmışdır ki, öz əksini saytımızda da tapmışdır. Bu il **"YENİ KİTABLAR"**ın 15 buraxılışı olmuşdur.

Universitetimizin müəllim-professor heyətinə, tələbələrə və digər oxuculara sorğularının ödənilməsində şöbəmiz yaxından yardım göstərmişdir və Qeydiyyatjurnalında sorğuların ödənilib-ödənilməməsi haqda qeydiyyatı aparılmışdır.

2014-cü il ərzində Qeydiyyat jurnalında 12 oxucunun sorğusu ödənilmiş, 2 oxucunun sorğusu isə ödənilməmişdir. İKT Mərkəzinin direktoru **Zöhrə Həsənovanın** rəhbərliyi və əməkdaşlarının köməkliyi ilə şöbəmiz vəistifadəçilərimiz arasındakıelektron əlaqə yarandığından istifadəçi sorğuları e-mail ünvanı, Facebook sosial şəbəkəsi vasitələrlə də cavablandırılır.

"Biblioqrafiya" şöbəsinin builki uğurlarından biri də FACEBOOK sosial şəbəkəsində əvvəlcə, **"ADİU- BİZİM KİTABXANA" Qrupunun**yaradılması olmuşdur. Bir neçə nəfər üzvlə yaradılan qrupun hazırda 94 üzvü vardır.

Hər vasitə ilə istifadəçilərimizə yeni informasiyanı çatdıran şöbəmiz bu uğurundan sonra **"ADİU- BİZİM KİTABXANA" səhifəsini** yaratdı. Artıq bir neçə aydır ki, bu səhifə fəaliyyət göstərir və maraqlı status, məqalələr və yeniliklərlə istifadəçiləri ilə paylaşır. Hazırda 209 istidafəçi tərəfindən səhifəmiz bəyənilmişdir və bu rəqəm durmadan dəyişir. Bu səhifənin statistikasını cədvəllərdə təqdim edirik.





Органический / Платный Охват | Клики на публикацию | Отметки "Нравится", комментарии и повторные публикации

| Опубликовано | Публикация | Тип | Целевая аудитория | Охват | Вовлечение | Продвигать |
|---|---|---|---|---|---|---|
| 11.01.2015 15:14 | ADIU - BIZIM Kitabxana | | | 31 | 0 3 | Продвигать публикацию |
| 11.01.2015 12:54 | ADIU - BIZIM Kitabxana | | | 17 | 0 2 | Продвигать публикацию |
| 11.01.2015 12:50 | İlham Əliyev Dağlıq Qabağ münaqişəsi | | | 43 | 3 5 | Продвигать публикацию |
| 10.01.2015 18:26 | ADIU - BIZIM Kitabxana | | | 94 | 1 12 | Продвигать публикацию |
| 10.01.2015 18:18 | ADIU - BIZIM Kitabxana | | | 62 | 0 6 | Продвигать публикацию |
| 10.01.2015 14:45 | ADIU - BIZIM Kitabxana | | | 100 | 1 14 | Продвигать публикацию |
| 08.01.2015 14:48 | Mikayıl Cabbarov əmr verdi | | | 49 | 9 1 | Продвигать публикацию |
| 08.01.2015 14:43 | ADIU - BIZIM Kitabxana | | | 14 | 1 0 | Продвигать публикацию |
| 08.01.2015 12:30 | ADIU - BIZIM Kitabxana | | | 42 | 0 4 | Продвигать публикацию |
| 08.01.2015 12:28 | ADIU - BIZIM Kitabxana | | | 9 | 0 1 | Продвигать публикацию |
| 08.01.2015 12:24 | ADIU - BIZIM Kitabxana | | | 91 | 0 13 | Продвигать публикацию |
| 08.01.2015 8:26 | ADIU - BIZIM Kitabxana | | | 14 | 0 1 | Продвигать публикацию |
| 07.01.2015 8:21 | Çox xoşbəxtəm ki, mənim kitabım | | | 19 | 0 0 | Продвигать публикацию |
| 06.01.2015 22:00 | "Facebook"un yaradıcısına | | | 35 | 1 1 | Продвигать публикацию |
| 06.01.2015 21:50 | ADIU - BIZIM Kitabxana | | | 58 | 0 4 | Продвигать публикацию |

26 sentyabr 2014-cü il tarixində **"Ədalət"** qəzetində şöbənin baş biblioqrafı Arzu Məmmədovanın**"Həyat və yaradıcılıq salnaməsi"**məqaləsi çap olunmuşdur. A.Məmmədova məqalədə **"Teymur Əkbər oğlu Əhmədov. Biblioqrafik məlumat toplusu"** biblioqrafik göstəricisinə münasibətini bildirmişdir.

2014-cü ildə "**Azərbaycan Dövlət İqtisad Universitetinin professor və müəllimlərinin müdafiə olunmuş dissertasiyaları"** adlı biblioqrafik göstərici nəşrdən çıxmışdır.7 yanvar 2015-ci il tarixli "Respublika" qəzetində İsmət Səfərovun **"Elmi bilikləri təcəssüm etdirən faydalı vəsait"** adlı məqaləsi çap olunmuşdur ki, məqalədə İsmət müəllim bu vəsaiti maraqlı, professional bir iş kimi qiymətləndirmişdir.

2014-cü ilin bütün kitabxanaçılar üçün dəyərli hadisələrindən biri də "ADA" Universitetində **"Kitabxana-informasiya sahəsində əldə edilmiş nəzəri və təcrübi nailiyyətlərin tətbiqi" mövzusunda I Beynəlxalq elmi konfransın** təşkili olmuşdur.

"Biblioqrafiya" şöbəsinin baş biblioqrafı Arzu Məmmədova 2014-cü il aprelin 1-i və 2-də "ADA" Universitetində bu elmi konfransdaiştirakçı olmuşdur. Müəllifi olduğu **"Azərbaycan Dövlət İqtisad Universiteti Nəşriyyatının nəşrləri: Biblioqrafik göstərici (2000-2010-cu illər)" və "Azərbaycan Dövlət İqtisad Universitetinin professor və müəllimlərinin müdafiə olunmuş dissertasiyaları. Biblioqrafik göstərici"** kitablarını nümunə kimi konfrans iştirakçılarına təqdim etmiş və biblioqrafik göstəricilərin bəyənilməsi və digər universitet kitabxanalarının nümayəndələri tərəfindən maraq doğurub, hədiyyə kimi öz kitabxanaları üçün istəmələri əməkdaşlarımız üçün çox sevindirici hal olmuşdur.

## TƏDBİRLƏRİMİZ:

**"Xalqımız qan yaddaşı"** və **"Əziz bayramlarımız"** rubrikasından hazırladığımız ənənəvi sərgilər universitetimizin əməkdaşlarına və tələbələrimizə təqdim edilmişdir. Bunlardan başqa:

**1.Məhəmməd Əmin RƏSULZADƏNIN 130 illiyi**

Bu münasibətlə 31 yanvar 2014-cü il tarixində şöbəmizin əməkdaşları da "İstiqlal" abidəsi önündə təşkil edilmiş tədbirdə yaxından iştirak etmişlər və Mədəniyyət və Turizm naziri Əbülfəs Qarayev, Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti Akif Əlizadə, Mətbuat Şurasının sədri Əflatun Amaşov və digər dövlət qurumlarının nümayəndələrininnitqlərini dinləmişlər.

Tədbir bitdikdən sonra isə Əsaslı Kitabxanada dəyirmi stol ətrafında M.Ə.Rəsulzadənin həyatı, fəaliyyəti və yaradıcılığını işıqlandıran kitablardan danışılmış, haqqında müzakirələr davam etmişdir. Məhəmməd Əmin Rəsulzadənin artıq kiçikdən böyüyə, hər kəsin dilində əzbərə çevrilmiş dəyərli kəlamları dönə-dönə təkrarlanmış, bəzi tarixi məqamlar işıqlandırılmışdır.

**2."26 FEVRAL – XOCALI SOYQIRIMI GÜNÜDÜR"**

Fevralın 26-sı 2014-cü il tarixində biz də - Əsaslı Kitabxana olaraq, Xocalı faciəsinin 22-ci ildönümü ilə bağlı anım tədbiri kecirtdik. Kitabxanada təşkil edilmiş xatirə lövhəsi qarşısında al qərənfillər arasında şamlar yandılılaraq,Xocalı Soyqırımının günahsız qurbanlarının əziz xatirəsi yad edildi. Tədbirin uğurlu alınmasında xalq rəssamı **Arif Bektaşi**, biblioqraf **Safura Vəliyeva**, "Xidmət" şöbəsinin kitabxanaçısı **Fəridə Nəbiyevanın** zəhməti danılmazdır.

3.**31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəylik günüdür.**

24 dekabr 2014-cü il tarixində**ADİU TGT Vətənpərvərlər klubu** (rəhbəri **Adil Hüseynov** olmaqla) **İnformatika İdarəetmə faküktəsinin və ADİU – BİZİM KİTABXANA qrupu**(rəhbəri **Arzu Məmmədova** olmaqla) ilə birgə təskil etdiyi

31Dekabr Həmrəylik gününə həsr olunmuş tədbirimiz keçirildi. Tədbir 4-cü Tədris korpusunun Akt zalında baş tutdu. Çox az zaman içərisində hazırlanmış konsert proqramı olduqca maraqlı, möhtəşəm, əyləncəli çıxışlarla yadda qaldı. Tədbirə Əsaslı Kitabxananın Oxu zalının kitabxanaçısı **Heyran Musayeva** öz yardımını əsirgəməmişdir.

**ADİU Əsaslı Kitabxanasının**

**Biblioqrafiya şöbəsinin baş biblioqrafı** **Məmmədova A.M.**